AZƏRBAYCAN 105

Tarix necə varsa...

Dünənin, bu günün və sabahların "Azərbaycan"ı

Elə mətbuat orqanları var ki, çapa başladığı vaxtdan bir gün də olsun fəaliyyətindən qalmır, illəri arxada qoya-qoya qərinələrlə, əsrlərlə yol yoldaşlığı edir. Maraqlı, dəyərli, obyektiv və tarixin səhifələrində qalan yazıları ilə zamanlara meydan oxuyur. Sabahlara gedən darısqal yollarını daim genişləndirir. Neçə-neçə nəsil onu sevə-sevə oxuyur.

Oxuduqca da qəzetin səhifələrindən elm, bilik, tarix, mərifət öyrənir, bir sözlə, əlinə düşdüyü vaxtını səmərəli keçirir. Yəqin ki, belə bir xoşbəxtlik heç də bütün mətbu orqanların qapısını döymür. Bu, yalnız fəaliyyəti və üz tutduğu zamanla ayaqlaşan mövzularla böyük oxucu sevgisi qazanan qəzetlərə nəsib olur. Oxucuları ilə, demək olar ki, hər gün görüşə gələn "Azərbaycan" qəzetinin də qismətinə belə uzun və xoşbəxt bir "ömür" yaşamaq düşüb. 105 il əvvəl - 1918-ci il sentyabr ayının 15-də fəaliyyətə başlayan "Azərbaycan" qəzeti bu gün şərəfli yoluna elə şərəflə də davam edir. Bir əsrdən çoxdur ki, qəzet rəsmi materialları, dəyərli yazıları, tarixə güzgü tutan məqalələri, bənzərsiz mövzuları ilə oxucularının görüşünə gəlir.

Əsrlərin qovuşuğunda həm 105 il əvvəlki "Azərbaycan"ın, həm də 105 il sonrakı "Azərbaycan"ın səhifələrinə boylandıqca kövrəkliyə bürünmüş qəribə hisslər keçirirəm. "Azərbaycan" yüz beş il əvvəl də var idi, "Azərbaycan" yüz beş il sonra da var. Əminliklə demək olar ki, nə qədər Azərbaycan adlı müstəqil dövlətimiz, Azərbaycan adlı ölkəmiz varsa, "Azərbaycan" da olacaq. Azərbaycan Respublikası isə dünya durduqca yaşayacaq. Deməli, "Azərbaycan" da həmişə, hər zaman səhər-səhər qapılarımızı döyəcək.

105 il əvvəlki "Azərbaycan" da dövrünün, zamanının tarixini yazırdı, 105 il sonrakı "Azərbaycan" da dövrünün gerçəklərini yazır. 105 il əvvəlki "Azərbaycan" da dövlətinin, xalqının yanındaydı, onların mənafeyini müdafiə edirdi, 105 il sonrakı "Azərbaycan" da yorulmadan xalqının, dövlətinin mənafeyinin müdafiəsindədir. Daim mübarizədədi, daim çarpışmadadı, daim ucalıqdadı. "Azərbaycan" tarixi ənənəyə daim sadiq qalaraq həmin xətti şərəf və ləyaqətlə davam etdirir. Yorulmadan üzü gələcəyə, sabahların oxucularına doğru inamla addımlayır.

"Azərbaycan" qəzeti 105 il əvvəl də ordu quruculuğu, hərbi vətənpərvərlik tərbiyəsi mövzularını daim diqqət mərkəzində saxlayırdı. 105 il sonrakı "Azərbaycan" da başqa mövzularla yanaşı, ordu quruculuğuna, hərbi həyata xüsusi önəm verir. Bu mövzularda obyektivliyə söykənən bir-birindən dəyərli, maraqlı tarixi əks etdirən materiallar dərc edir. Səhifələrini ordu quruculuğu mövzusuna, hərbi sahəyə çox böyük səxavətlə açır.

"Azərbaycan" qəzetinin bir il, iki il, on il əvvəl dərc olunan nömrələrini deyil, elə bir ay bundan öncə işıq üzü görən saylarını, hətta bir neçə nömrəsini belə vərəqləmək kifayət edir ki, rəhbərliyin ordu quruculuğuna, hərbi sahəyə olan diqqət və qayğısını açıq-aydın görəsən. Təbiidir ki, müharibə şəraitində yaşadığımız vaxtlarda bu belə də olmalıdır. Deməli, qəzet zamanın nəbzini tutur, dövrlə ayaqlaşır. Məhz elə buna görədir ki, qərinələri, əsrləri arxada qoya-qoya üzü sabahlara doğru gedir.

Qəzetin 2020-ci il sentyabr nömrələrini vərəqləyirəm. Sual oluna bilər ki, niyə məhz sentyabr nömrələrini? Ona görə ki, həmin il sentyabr ayının 27-də erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. 30 ilə yaxın susan silahlar ilıq bir payız səhərində dil açıb gurladı. Qarabağın azadlığı uğrunda döyüşlər başladı. Şükürlər olsun ki, 44 gün davam edən müharibə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun zəfəri ilə başa çatdı. Müharibənın həmin gündə, həmin tarixdə başlayacağını kimsə əvvəlcədən dəqiq bilmirdi. Vətən müharibəsi sanki bir ildırım kimi qəfləton çaxdı. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu döyüşlərdə böyük igidlik göstərərək erməni işğalçılarını məğlub etdi. Hərbçilərimiz bu döyüşdə təkcə silahların gücü ilə deyil, mənəviyyatlarının, iradələrinin gücü, Vətənə olan sonsuz sevgiləri ilə qalib gəldilər.

Vətən müharibəsi başlayan ərəfədə "Azərbaycan" qəzetində ordu quruculuğu mövzusunda dərc olunan materiallarla tanışlıqdan ürəyimiz qürurla dolur. Oxuculara təqdim olunan yazıların mayasında düşmənə nifrət, Vətənə sevgi dayanır. Təbiidir ki, bu materialları oxuyan gənclər vətənpərvər ruhda böyüyürlər. Buna görə də tam inamla demək olar ki, Vətən müharibəsində əsgərlərimiz qələbəni təkcə silahları ilə yox, həm də mənəvi-psixoloji hazırlıqlarının yüksək olmaları ilə qazandılar. Çünki döyüşə atılan əsgərlər təkcə avtomatlarla deyil, qisas və intiqam hissi ilə də silahlanmışdılar. Əgər müasir silahlarla təchiz olunmuş əsgər vətənpərvər deyilsə, ondan qələbə gözləmək çətin işdi. Yəni düşmən üzərində qazanılmış zəfərdə sözün də öz payı var.

Bu gün mətbuat aləmində deyilən, yazılan söz sahiblərindən birincisi, aparıcı qolu, flaqmanı "Azərbaycan"dır. Qəzetin, demək olar ki, bütün nömrələrində ordu quruculuğuna həsr olunmuş materiallar var. Bu materiallar təkcə Müdafiə Nazirliyinin verdiyi rəsmi materiallarla məhdudlaşmır. Qəzetin səhifələrində müəlliflərin də ordu quruculuğu ilə bağlı maraqlı yazıları diqqəti çəkir. Bu yazıların hamısı vətənpərvərlik duyğularından mayalanıb.

"Azərbaycan" qəzetinin 4 sentyabr tarixindəki nömrəsindəki "Vətən sevgisinin gücü", 12 sentyabr tarixindəki sayında "Tərtərdə vətənpərvər yetişir" məqaləsi, 13 sentyabr tarixindəki sayında "Müasir döyüş imkanlarına malik ordu" və başqa məqalələr ordu quruculuğuna, gənclərin vətənpərvərlik tərbiyəsinə həsr olunub. "Müasir döyüş imkanlarına malik ordu" məqaləsi oxucuların yaddaşına bu sözlərlə cığır açır: "Bu gün Azərbaycan dünyada həm müxtəlif sahələrdə nail olduğu uğurlarla, həm də müasir döyüş imkanlarına malik ordusu ilə tanınır. Qarşısında dayanan vəzifələri çevik, operativ və yüksək dəqiqliklə yerinə yetirmək imkanlarına malik olan ordumuzun ən modern standartlara cavab verən hərbi gücə çevrilməsi olduqca qürurvericidir". Sonra müəllif ordu quruculuğu ilə bağlı uğurlu islahatlardan ətraflı söz açır. Təbiidir ki, belə yazıları oxumaq hamı üçün qürurludur.

İkinci Qarabağ müharibəsinin başlamasına 10 gün qalmış qəzetin 17 sentyabr tarixli nömrəsində dərc olunmuş "Azərbaycan Ordusu torpaqlarımızın azad edilməsi naminə müqəddəs vəzifəni yerinə yetirməyə hazırdır" başlıqlı yazı sanki sabahkı qələbəmizdən xəbər verirdi. Doğrudan da, 10 gündən sonra başlayan müharibədə ordumuz düşmənə qalib gəldi.

"Azərbaycan"ın səhifələrində müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissə və birləşmələrə olan səfərlərinə, dövlət başçısının bu səfərlər zamanı zabit və əsgərlər qarşısındakı çıxışlarına geniş yer verilir. Bu çıxışları yaxından izləyən oxucular ordu quruculuğu istiqamətində aparılan islahatlarla ətraflı tanış olurlar. Ordumuzun dünənindən, bu günündən, sabahından xəbər tuturlar.

Belə məqalələrdən biri - "İlham Əliyevin iradəsi" adlı yazı təkcə ordu quruculuğunu deyil, demək olar ki, bütövlükdə dövlət quruculuğu prosesini əhatə edir. Məqalədə deyilir: "Dövlət başçısı məqsədə çatmaq üçün lazım olan bütün vasitələrdən istifadə edir:

- güclü ordu yaradılmış, ən müasir silahlarla təmin olunmuşdur;

- vətənpərvər hərbçilər, müasir hərbi biliklərə yiyələnən zabitlər korpusu yaradılmışdır;

- münaqişənin sülh yolu ilə həlli üçün sonadək cəhdlər göstərilmişdir;

- azğın düşmənə dördgünlük Aprel döyüşlərində, Günnüt əməliyyatlarında, Tovuz istiqamətindəki döyüşlərdə qulaqburması verilərək ciddi xəbərdarlıq olunmuşdur".

"Azərbaycan"ın 22 sentyabr tarixli 192-ci nömrəsini vərəqləyəndə qəzetin ordu quruculuğuna, hərbi-vətənpərvərlik tərbiyəsinə necə də böyük önəm verdiyinin bir daha şahidi oluruq. Qəzetin həmin sayında ordu quruculuğundan, hərbi-vətənpərvərlik tərbiyəsindən bəhs edən 3 yazı dərc olunub. "İlham Əliyevdən qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayişi", "Güclü dövlətin qüdrətli ordusu", "Qəhrəmanlıq nümunəsi" rubrikası ilə verilmiş Əhmədiyyə Cəbrayılovun 100 illiyinə həsr olunmuş yazılar ordu quruculuğuna, hərbi-vətənpərvərlik mövzusuna həsr olunub.

Qəzetin 26 sentyabr tarixində dərc olunmuş "Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar" başlıqlı yazı diqqətimizi daha çox cəlb etdi. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toiva Klaarini qəbul edərkən deyir. Yazı ona görə diqqəti cəlb edir ki, bu sözlərdə bir qürur var, dövlət başçısının ordumuza güvənci var, inamı var, qələbəyə, zəfərə böyük ümidi var. Hər şeydən əvvəl dövlət başçısının uzaqgörənliyi, müdrikliyi və özünəgüvəni var. Çünki elə ertəsi gün erməni qəsbkarları mövqelərimizə hücum etdilər. İkinci Qarabağ müharibəsi başlandı. Və hər şey dövlət başçısının böyük uzaqgörənliklə söylədiyi kimi oldu. Gündən-günə gücünü, qüdrətini artıran ordumuz erməni qəsbkarlarını mövqelərimizə hücum çəkdiklərinə görə peşman etdilər.

Haqqında qısaca bəhs etdiyimiz bu və ya digər yazılar qəzetdə İkinci Qarabağ müharibəsinə qədər dərc olunub. Bu materialların hamısı ordu quruculuğu, hərbi-vətənpərvərlik mövzusundadı. Məqalələr elə şövqlə, elə maraqla, elə mübariz ruhda yazılıb ki, onu oxuyanlarda vətənpərvərlik və düşmənə nifrət hissləri formalaşır. Bax, bu cür döyüş ruhunda, məğlubedilməzlik ovqatında, dönməzlik əzmində qələmə alınan yazılar gənclərimizi sabahkı döyüşlərə qəhrəman kimi hazırladı. Bu cür vətənpərvər ruhlu gənclərimiz İkinci Qarabağ müharibəsinə zəfər ovqatı ilə yola düşdülər. Çox keçmədi ki, bu cəsur oğullar düşməni məğlub edərək geriyə zəfərlə döndülər. Xalqımıza qələbə sevinci yaşatdılar.

27 sentyabrda başlayan İkinci Qarabağ müharibəsi haqqında xəbər "Azərbaycan"ın 29 sentyabr tarixli 198-ci nömrəsində bütün təfsilatı ilə verilib. Həmin nömrə, demək olar ki, İkinci Qarabağ müharibəsinin başlanmasına həsr olunub. Oxucusuna 28 ildən sonra Qarabağ uğrunda döyüşlərin yenidən başladığını çatdıran qəzet sanki özü də müharibə qoxulu yazıları ilə silahlanmışdı. Səhifələrdə müharibə ilə bağlı müraciətlər, rəsmi xəbərlər, sərəncamlar dərc olunub. Qəzet müharibənin elə ilk günündən, ilk nömrəsindən oxucularına müharibənin qələbəmizlə başa çatacağı müjdəsini verir. Xalqı düşmən üzərində qələbəyə, zəfərə kökləyir, qazanılacaq uğurlara ruhlandırır. Bütün yazılar Ali Baş Komandan İlham Əliyevin böyük uzaqgörənliklə dediyi: "Biz zəfər çalacağıq!", "Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır!" sözləri ilə oxuculara təqdim olunur.

Həmin günlərdə sanki "Azərbaycan" da dəyərli yazıları, operativ xəbərləri ilə informasiya cəbhəsində düşmənlə döyüşürdü. Cəbhədən gələn uğurlu xəbərləri oxucusuna çatdırmağa tələsirdi. Döyüşlərin davam etdiyi günlərdə qəzetin səhifələrinə göz gəzdirən oxucu öyrənirdi ki, ölkədə hərbi vəziyyət elan olunub. Prezident qismən səfərbərlik haqqında sərəncam imzalayıb. Yurd təəssübü çəkən oğullar səfərbərlik elan olunan kimi böyük həvəslə, qələbə əzmi ilə ordu sıralarına yollanırdılar. Bu mövzuya həsr olunmuş yazılar "Qələbə ilə qayıdacağıq" başlığı ilə dərc olunub.

"Azərbaycan"ın səhifələrindəki yazılarla tanış olan oxucular xalqın Prezidentin ətrafında necə də sıx birləşdiyini görürdü. Və özü də qələbə naminə səfərbər olurdu. Qəzet Ali Baş Komandanın xalqa davamlı müraciətlərini operativ və ardıcıl şəkildə çatdırırdı. Oxucular Prezidentin çıxışlarını maraqla oxuyur, işğaldan azad olunmuş rayon və kəndlərin adlarını öyrənirdilər. Səbirsizliklə Prezidentin növbəti müraciətini gözləyirdilər. Müharibə gedən günlərdə müntəzəm olaraq, qəzetdə Müdafiə Nazirliyi Mətbuat xidmətinin məlumatları da dərc olunurdu. Vətən müharibəsinin davam etdiyi günlərdə qəzetin müxbirləri də səfərbər olaraq, qələmlərini silaha çevirərək cəbhə xəbərlərini oxucularına çatdırırdılar. Həmin günlər qəzetdə dərc olunan yazıların başlıqları da diqqətimizi ahənrüba kimi özünə çəkirdi. "İlham Əliyevin rəhbərliyi ilə tariximizin şərəfli səhifəsi yazılır!", "Haqq yolunun zəfər zirvəsi", "Azərbaycan Ordusu ən güclülərin sırasında olduğunu döyüş meydanlarında nümayiş etdirir", "Zəfər yürüşü", "Tarixin alqışladığı qələbə", "İlham Əliyevin tam qələbəni elan edəcəyi günə az qaldı", "Yurd həsrətimizə son qoyulacağı günə çox qalmayıb", "Əmrinizə müntəzirik, cənab Ali Baş Komandan!", "Qarabağdan ermənilərin böyük köçü başlayıb", "Azərbaycan əsgərinin tarix yazacağı günə az qalıb", "Sərkərdə qətiyyəti, əsgər rəşadəti", "Vətənə can da qurban, qan da...", "Vətən müharibəsi qələbə ilə başa çatacaq", "Yolun açıq olsun, Azərbaycan əsgəri!", "Şuşa Qarabağın baş tacıdır" və başqa yazılar müharibə həqiqətlərini əks etdirir.

Vətən müharibəsinin davam etdiyi günlərdə "Azərbaycan" qəzetinin səhifələrində Ali Baş Komandan İlham Əliyevin düşmən üzərində qələbəmiz naminə atdığı bütün addımlar operativ və ardıcıllıqla işıqlandırılıb. Həmin günlərin barıt qoxulu nömrələrini vərəqlədikcə möhtərəm Prezidentimiz İlham Əliyevi gah yerli və xarici jurnalistlərə müsahibə verən, gah xalqa müraciət edən, gah da döyüşlərdə yaralanmış zabit və əsgərlərlə görüşən görürük. "Azərbaycan" həmin günlərdə Prezidentin qalib obrazını oxuculara böyük ustalıq və bacarıqla təqdim edirdi. Qəzetin rəhbərliyi belə gərgin günlərdə də qəzetdə orduya geniş yer ayırıb, bu sahəni ətraflı işıqlandırıb, müharibənin gedişi barədə oxucularına operativ məlumatlar verib. Təbiidir ki, bütün bu addımlar düşmən üzərində qələbəmiz naminə atılıb.

"Azərbaycan" qəzetinin 3 noyabr və 8 noyabr tarixlərindəki "Qalib məhz Azərbaycan olacaq", "Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır", "Tarixin alqışladığı qələbə" başlıqlı məqalələr Vətən müharibəsindən bəhs edir. Həmin məqalələrdə müharibənin gedişindən ətraflı söz açılır, baş verən hadisələr geniş təhlil edilir, erməni vəhşiliyi bütün çılpaqlığı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırılır: *"...Bu gün Ermənistanın həyata keçirdiyi etnik və mədəni təmizləmə müharibə cinayətidir, insanlıq əleyhinə atılan ən qəddar addımlardır. Düşmən tərəfi həmçinin bizim mədəni irsimizə təcavüz edir."* Məqalə ermənilər, erməniçiliyi pisləyən ittihamlarla doludur. Məqalə bu cümlələrlə tamamlanır: *"Bizim apardığımız haqq davasıdır, bu davanın qalibi məhz Azərbaycan olacaq!"* Doğrudan da, hər şey müəllifin yazdığı kimi oldu, başqaları kimi o da arzusuna qovuşdu, Azərbaycan Vətən müharibəsinin qalibi oldu.

"Azərbaycan bayrağı artıq Qarabağda dalğalanır" məqaləsi də zəfər ovqatı ilə yazılıb. Məqalə qələmə alınan günə qədər artıq şanlı ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 ilə yaxın işğalda qalmış xeyli sayda şəhər və kəndlərimizi düşməndən azad etmişdi. Xalqımız addım-addım qələbəyə yaxınlaşırdı. Müəllif bu barədə bir daha oxucularını məlumatlandıraraq sevinc hissləri ilə yazır: *" Artıq Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları işğaldan azad edilib. Xocavənd və Tərtər rayonlarının kəndləri də daxil olmaqla, ümumilikdə bu rayonlar üzrə iki yüzdən artıq yaşayış məntəqəsi azad olunub..."* Məqaləni oxuduqca hiss edirsən ki, müəllif bu cümlələri həyəcanla, qürur hissləri keçirə-keçirə yazıb. Elə oxucu da bu cümlələri həmin hissləri keçirə-keçirə oxuyur: *"...Qarabağın tam azad olunmasına az qalıb. Şanlı ordumuz ən qısa vaxtda öz vəzifəsini bütünlüklə yerinə yetirəcək və Azərbaycanın ərazi bütövlüyünü təmin edən Ali Baş Komandan İlham Əliyev bayrağımızı Şuşada dalğalandıracaq".* Bu məqalə qəzetdə dərc olunan gün Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciətində mədəniyyət beşiyimiz olan Şuşanın ermənilərin işğalından azad olunduğu müjdəsini verdi.

Haqq-ədalət öz yerini tutdu. Xalqın illərdən bəri gözlədiyi gün gəldi. Bir müddətdən sonra dövlət başçısı Şuşaya səfər edərək Azərbaycan bayrağını Şuşada dalğalandırdı. Arzular çin oldu, ürəklər açıldı, qəlblər sevindi. "Azərbaycan" bu möhtəşəm, qürurverici mərasimi də səhifələrində geniş işıqlandırdı.

Həm ordu quruculuğu, həm hərbi-vətənpərvərlik tərbiyəsi "İlham Əliyevin tarix və jurnalistika dərsləri", "Sənə minnətdarıq, Ali Baş Komandanımız", "İlham Əliyev hünəri", "Dəmir yumruq", "İlham Əliyev dərsləri", "Dünya orduları Azərbaycandan öyrənirlər", "Müharibənin Azərbaycan modeli" başlıqlı bu və ya digər məqalələrində öz əksini geniş tapır. Məqalələrin başlıqlarından göründüyü kimi, Azərbaycan Ordusunun 44 gün ərzində erməni işğalçıları üzərində qazandığı tarixi qələbə dünyanın aparıcı dövlətlərinin də diqqətini çəkib. Uzun illər ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlar uğurla nəticələnib.

Adlarını qeyd etdiyim məqalələrdəki ordu quruculuğu və Vətən müharibəsi ilə bağlı fikirlərə diqqət yetirək. "Sənə minnətdarıq, Ali Baş Komandan!" məqaləsində oxuyuruq:

- Yenə dediyini etdin, Prezidentim!

- Sözünün sahibi olduğunu bir daha göstərdin!

- Azərbaycan tarixində itirilmiş torpaqları qaytaran ilk sərkərdə oldun!

- Vətənin ərazi bütövlüyünü bərpa etdin!

- Xalqımızın ən böyük arzusunu gerçəkləşdirdin!

- Düşmənləri xar edib, dostlarımızı sevindirdin!

- Bizi qalib xalqa, qalib dövlətə çevirdin!

- Bütün bunlara görə Sənə minnətdarıq, Ali Baş Komandan!

"İlham Əliyev hünəri" yazısından reallığı, həqiqəti əks etdirən bu cümlələri oxuyuruq:

"- Nə böyük xoşbəxtlikdir İlham Əliyev kimi möhkəm iradəli, qətiyyətli, uzaqgörən, müdrik və cəsarətli Prezidentin rəhbərlik etdiyi ölkədə yaşamaq.

- Fəxr edirik ki, vədində sadiq, əməlində düz, dediyini edən Prezidentimiz var.

- Dediklərinin hamısını etdi!

Cəsarətlə!

Hünərlə!

Şücaətlə!"

"Azərbaycan" ordu quruculuğunu, Vətən müharibəsində qazanılmış uğurları və bu uğurlardan doğan zəfəri təkcə yazılarla deyil, fotoşəkillərlə də oxucularına çatdırır. Oxucular bu şəkillərdə hərbçi həyatının, ordu quruculuğunun müxtəlif anlarını görür. Şəkillərə diqqətlə baxırıq: budur, zabit və əsgərlər döyüşürlər, snayperlər mövqelərindədi, artilleriyaçılar atəş açır, zirehli texnikalar irəliləyir, piyadalar düşmən üzərinə yeriyir, həkimlər yaralıya tibbi xidmət göstərirlər... Bütün bunlar həyatın bir anını tarixləşdirən fotoşəkillərdə əks olunur.

Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında daim inkişaf edir, yenidən qurulur, yenidən formalaşır. Bu gün yenə də "Azərbaycan" qəzetinin səhifələrində ordu quruculuğu, hərbi-vətənpərvərlik tərbiyəsi mövzularında bir-birindən maraqlı materiallar dərc olunur. Dünən də bu belə idi, bu gün də belədir. Əminliklə demək olar ki, sabahlarda da belə olacaq. Çünki "Azərbaycan" dünənin, bu günün və sabahların qəzetidir!

Vahid MƏHƏRRƏMOV,
araşdırmaçı jurnalist